# Qəbələ ilə Koreya Respublikasının Qyonqcu şəhərləri arasında dostluq münasibətlərinin qurulması haqqında saziş imzalanıb

Koreya Respublikasının Qyonqcu şəhərinin meri Çoi Yanq-sinin başçılıq etdiyi nümayəndə heyəti Qəbələ rayonuna səfər edib. Qonaqları rayon icra





hakimiyyətinin başçısı Səbuhi Abdullayev qarşılayıb. Milli geyimdə olan qızlar qonaqlara Novruz bayramının əsas simvolu və milli mətbəximizin məhsulu olan şirniyyatlar təqdim ediblər.

Nümayəndə heyətinin üzvləri əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Sonra qonaqlar Qəbələ Mədəniyyət Mərkəzində milli muğam üçlüyünün ifasında xalq musiqisindən nümunələrə qulaq asıblar.



Mərkəzin konfrans zalında "Qəbələ rayonu və Qyonqcu şəhəri arasında dostluq münasibətlərinin qurulması haqqında saziş"in imzalanması mərasimi keçirilib. Sənədi Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və Qyonqcu şəhərinin meri Çoi Yanq-si imzalayıb. Sazişə əsasən tərəflər tarix, mədəniyyət və arxeologiya sahəsində qarşılıqlı elmi tədqiqat işlərini genişləndirməyə çalışacaq, turizm, iqtisadiyyat, təhsil, idman sahələrində əlaqələr gücləndiriləcək və özəl sektorda mübadilə proqramları həyata keçirəcək.





Mərasimdə Koreya Respublikası nümayəndə heyətinin üzvləri, Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbər şəxsləri, eləcə də Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının (SEBA-Seul-Bakı) sədr müavini İnna Zeynalova, təşkilatın beynəlxalq əlaqələr və tədris şöbəsinin müdiri İradə Nəcəfova iştirak ediblər.

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tədbirdə çıxış edərək Qəbələnin tarixi, mədəni həyatı, iqtisadiyyatı barədə ətraflı məlumat verib, turizm, sosial-iqtisadi sahədə reallaşdırılan müxtəlif layihələrdən və əldə olunan uğurlardan danışıb. Bildirilib ki, dost ölkələrimiz arasında qarşılıqlı əməkdaşlıq əlaqələri mövcuddur. 2015-ci ilin avqust ayının 7-dən 15-dək Azərbaycan Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşkilatçılığı ilə Qəbələdə Koreya Kinosu Festivalı keçirilib, burada hər il təşkil olunan beynəlxalq rəsm sərgilərində koreyalı rəssamların əsərləri nümayiş etdirilir, Azərbaycanın ən qədim və strateji yaşayış məskənlərindən biri olan Çuxur Qəbələ ərazisində aparılan arxeoloji tədqiqat işlərində koreyalı alimlərin çalışması üçün hər cür köməklik göstərilir.



Qəbələ və Qyonqcu şəhərləri arasında dostluq münasibətlərinin qurulması haqqında sazişin imzalanmasının qardaş ölkələrin iqtisadi və mədəni tərəqqisinə, xalqlarımızın biri-birinin mədəniyyəti ilə daha yaxından tanış olmasına öz töhfəsini verəcəyi bildirilib.

Səbuhi Abdullayev 2015-ci ildə Koreya Respublikasına səfəri zamanı Qyonqcu şəhərində ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Qyonqcu şəhərinin meri Çoi Yanq-siyə və bugünkü görüşün təşkilinə dəstək verdiyi üçün Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının rəhbərliyinə minnətdarlığını bildirib.

Qyonqcu şəhərinin meri Çoi Yanq-si diqqətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirib. O, Qəbələnin sosial-iqtisadi inkişafının, eləcə də füsunkar təbiətinin onu məftun etdiyini və bu tanışlığın təəssüratında silinməyəcək xoş xatirələr yaratdığını qeyd edib. Koreyalı qonaq iki şəhər arasında bir çox sahələrdə əməkdaşlığın davam etdiriləcəyinə və uğurlu nəticələr əldə olunacağına əminliyini bildirib. O, Qəbələ futbol komandasını bu ilin avqustunda Qyonqcu şəhərində keçiriləcək beynəlxalq yarışa dəvət edib. Çoi Yanq-si gələcəkdə qarşılıqlı səfərlərin tez-tez təşkil ediləcəyini və iş adamlarına səmərəli əməkdaşlıq üçün imkanlar yaradılacağını diqqətə çatdırıb.

Sonra Koreya Respublikasının nümayəndə heyəti Çuxur Qəbələ kəndində qədim Qəbələ şəhərinin qalıqları və ərazidə aparılan arxeoloji qazıntıların nəticələri ilə tanış olub. Onlara məlumat verilib ki, Azərbaycanın ən qədim şəhərlərindən olan Qəbələnin çox zəngin tarixi var. Bu rayondakı ölkə əhəmiyyətli qədim memarlıq abidələri mədəni irsimizin nadir inciləri hesab olunur. Qonaqlar 900 il Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələnin tarixi, mədəniyyəti və etnoqrafiyası haqqında məlumat əldə ediblər. Bildirilib ki, Azərbaycan-Koreya arxeoloji ekspedisiyası 2009-cu ilin yayında Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının (SEBA) təşəbbüsü, maliyyə və təşkilati dəstəyi ilə fəaliyyətə başlayıb. O vaxtdan etibarən Qafqaz Albaniyası dövlətinin paytaxtı, sonralar isə Azərbaycan və Şərqin tarixində əhəmiyyətli şəhər olmuş Qəbələnin ərazisində, eləcə də Paleolit, Eneolit və Erkən Tunc dövrlərinə aid şəhərkənarı ərazilərdə arxeoloji tədqiqatlar aparılıb.

Qeyd edilib ki, Qəbələdəki arxeoloji tədqiqatlar AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları və Koreyanın bir neçə elmi mərkəzinin mütəxəssislərindən ibarət heyət tərəfindən aparılıb. Arxeoloji qazıntılar zamanı aşkar edilən maddi-mədəniyyət nümunələri Qəbələdə qədim şəhərsalma və şəhər həyatının səviyyəsini müəyyən etməyə imkan verir. Koreyalı qonaqlar Çuxur Qəbələ kəndindəki arxeoloji mərkəzin sərgi salonunda həmin nümunələrə baxıb.

Qonaqlar üçün koreyalı alimlərin Qəbələdə apardığı arxeoloji qazıntı prosesini və rayonun sosial-iqtisadi inkişafını əks etdirən videoçarx nümayiş etdirilib.

Nümayəndə heyəti "Beltmann" piano fabrikində istehsal prosesi ilə tanış olub. Məlumat verilib ki, müəssisədə ildə 1200-1500 ədəd dünyada məşhur olan "Beltmann" markalı pianolar istehsal edilir. Qonaqlar, həmçinin Qəbələ regional "ASAN xidmət" mərkəzi, "Gilan Qida Şəhərciyi"ndə çipsi istehsalı prosesi, limonad və meyvə şirələri istehsalı müəssisəsinin məhsulları, eləcə də Nohur gölü ətrafındakı turizm obyektləri, son illərdə rayonda inşa edilən müasir beşulduzlu otellərlə tanış olublar. Koreya Respublikasının nümayəndə heyəti Qəbələdən böyük təəssüratla ayrılmışdır.

**İlkin Vəlizadə.**
**"Qəbələ".**